Ədəbiyyat QƏZETİ 28 noyabr 2025-ci il 29



# *Alməmməd* *ELDAROĞLU-65*

Hörmətli Alməmməd müəllim!

Sizi - istedadlı şairi 65 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz 20 noyabr 1960-cı ildə Şərur rayonunun Dəmirçi kəndində (indiki Sədərək rayonunun Dəmirçi kəndində) anadan olmusunuz. Uzun illər Daxili İşlər Nazirliyində müxtəlif yüksək vəzifələrdə çalışmısınız. Təqaüddə olan polis polkovnikisiniz.

20 ilə yaxın qürbətdə yaşamış, fəaliyyət göstərmisiniz. Buna baxmayaraq ədəbiyyata qəlbən bağlı olan şair kimi çoxlu sayda şeir, qəzəl və poemalar yazmısınız. "Vətən əmanətdir" (Bakı, 2011), "Mənim gördüyüm dünya" (Bakı, 2013), "Niyə belədir dünya?" (Naxçıvan, 2021), "Dağlar qartalı" (Naxçıvan, 2022), "Vətən harayı" (Naxçıvan, 2022), "Könlümün yurdu Vətən" (Naxçıvan, 2022), "Qonaq getmişdim Araza" (Naxçıvan, 2023), "Gecələr, düşüncələr" (Naxçıvan, 2024), "Qara daş" (Naxçıvan, 2024), "Zəfər günəşi" (Naxçıvan, 2024), "Öpəndə torpağı bayraq kölgəsi" (Naxçıvan, 2025), "Darıxan arzular" (Naxçıvan, 2025) adlı kitabların müəllifisiniz. 2015-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü və "Qızıl qələm" mükafatı laureatısınız.

Hörmətli Alməmməd müəllim!

Sizi bir daha 65 illiyiniz münasibətilə təbrik edir, cansağlığı, yeni yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**